**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№ 242/3** **11 iyun 2013-cü il**

**Daxili audit qanunvericiliyinin təkmilləşdirilməsi üçün təkliflər barədə**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın "Daxili audit qanunvericiliyinin təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması" barədə 13.4-cü bəndinə əsasən Auditorlar Palatasının 2013-2015-ci illər üzrə iş planının və Palata Şurasının 2013-cü il üzrə iş planının - "Daxili audit qanunvericiliyinin təkmilləşdirilməsi üçün təkliflərin hazırlanması" barədə 1.2.1-ci və 1-ci müvafiq bəndlərin icrası ilə əlaqədar Palata sədrinin 2012-ci il 27 dekabr tarixli 1/27 saylı sərəncamı ilə yaradılmış işçi qrupu (rəhbər C.Axundov) tərəfindən "Daxili audit haqqında" Azərbaycan Respublikasının 2007-ci il 22 may tarixli 332-IIIQ Qanununa əlavə və dəyişikliklər edilməsi barədə hazırlanmış təklifləri müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. İşçi qrupu tərəfindən "Daxili audit haqqında" Azərbaycan Respublikasının 332-IIIQ Qanununa əlavə və dəyişikliklər edilməsi barədə hazırlanmış təkliflər nəzərə alınsın (əlavə əlunur).
2. İşçi qrupuna (rəhbər C.Axundov) tapşırılsın ki, Şura üzvləri tərəfindən göstərilən irad və təkliflər nəzərə alınmaqla qanun layihəsinin I variantı üzərində iş 10 (on) gün müddətində başa çatdırılsın.
3. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın 13.4-cü "Daxili audit qanunvericiliyinin təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması" barədə bəndinə uyğun olaraq daxili audit haqqında qanun layihəsinin baxılmaq üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Maliyyə Nazirliyə və Hesablama Palatasına göndərilməsi məqsədəmü-vafiq hesab edilsin.
4. Bu qərar və qanun layihəsi Palatanın internet səhifəsində yerləşdirilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**